

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 39 (23.926)

26 fevral 2022-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Fevralın 25-də BMT Baş Assambleyasının sədrinin "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələr keçirilib.Tədbirdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin milli qisimdə və Qoşulmama Hərəkatının sədri kimi Hərəkata üzv dövlətlər adından videoformatda çıxışı təqdim olunub.

Prezident, Qoşulmama Hərəkatının sədri İlham Əliyev çıxışında bildirib ki, Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Baş Assambleyasının sədri cənab Abdulla Şahidin COVID-19 pandemiyası ilə mübarizədə universal peyvəndlənməyə dair belə yüksək səviyyəli tematik müzakirələrin keçirilməsi təşəbbüsünü təqdir edir. Azərbaycan COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün təsirli və adekvat tədbirlərin həyata keçirilməsini davam etdirir. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün bu ilin dövlət büdcəsindən 1.6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb. Azərbaycan pandemiya, "peyvənd millətçiliyi" və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib.



## Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə müşavirə keçirilib





Fevralın 25-də Naxçıvan Muxtar Respublikasında təsərrüfat işlərinə hazırlıq və qarşıda duran vəzifələr barədə müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirəni açaraq təsərrüfat ayı olan martda təmizlik, abadlıq, yaşıllaşdırma və təsərrüfat işləri, eyni zamanda milli-mənəvi dəyərlərimizlə bağlı qarşıda duran vəzifələri diqqətə çatdırmışdır.

Müşavirədə Naxçıvan Muxtar Respublikası Baş nazirinin birinci müavini Elşad Əliyev, Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri Niyazi Novruzov, Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev, Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov, Naxçıvan Muxtar Respublikasının ekologiya və təbii sərvətlər naziri Mais Əliyev çıxış edərək aidiyyəti üzrə məlumat vermişlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Naxçıvan Muxtar Respublikasında gigiyena-epidemiologiya və baytarlıq təbabəti sahəsində Dövlət proqramlarının qəbul olunması, həyata keçirilən qabaqlayıcı profilaktik tədbirlər sağlam ətraf mühit və sağlam qida təminatına imkan verir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada sanitar-epidemioloji vəziyyət sabitdir. Novruz bayramı ərəfəsində təmizlik-abadlıq və təsərrüfat işlərinin görülməsi də mühüm əhəmiyyət daşıyır. Çünki min illər ərzində formalaşmış Novruz adətləri xalqımızın məişət-sanitariya gigiyenası və təsərrüfat həyatı ilə sıx bağlıdır. Bu səbəbdən də mart ayında aid qurumlar tərəfindən dezinfeksiya tədbirləri və təsərrüfat işlərinə hazırlıq məsələləri diqqətdə saxlanılmalıdır.

Ali Məclisin Sədri aid qurumlar qarşısında tapşırıq qoyaraq demişdir: Fövqəladə Hallar Nazirliyi və Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən martın 1-dən etibarən bütün yaşayış məntəqələrində və əhali sıxlığı müşahidə olunan yerlərdə qrafikə uyğun dezinfeksiya işləri aparılmalıdır. Xüsusilə bazarlar və böyük ticarət mərkəzləri, mədəniyyət müəssisələri, turistik yerlər, bayram günlərində isə uşaq musiqi və bədii sənətkarlıq məktəbləri, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, eləcə də digər idarə, müəssisə və təşkilatların inzibati binaları və xidmət sahələri mərhələli şəkildə dezinfeksiya olunmalıdır. Ticarət və xidmət sahələrində sanitar-gigiyena qaydalarına əməl olunması əhalinin sağlamlığının qorunmasında vacib amildir. Gigiyena və Epidemiologiya Mərkəzi, Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti ictimai iaşə, ticarət və xidmət obyektlərinin sanitar-epidemioloji qaydalara uyğun fəaliyyətinə nəzarət etməlidir.

Təhsil Nazirliyi Gigiyena və Epidemiologiya Mərkəzi ilə birlikdə Novruz bayramı günlərində muxtar respublikanın məktəbəqədər, məktəbdənkənar, peşə və ümumtəhsil məktəblərində dezinfeksiya işlərinin aparılmasını təmin etməli, Səhiyyə Nazirliyi təhsil müəssisələrində gündəlik müşahidə və müayinələri davam etdirməlidir. Səhiyyə Nazirliyi peyvənd təqviminə diqqət etməli, mövsümi xəstəliklər və koronavirus infeksiyasına qarşı peyvənd işini davam etdirməli, tibbi maarifləndirmə aparılmalı, profilaktik müayinələrin sayı artırılmalı, xəstəliklər və onların risk amilləri erkən mərhələdə aşkar edilməlidir.

Ali Məclisin Sədri demişdir: Kənd təsərrüfatı məhsulları yarmarkalarının keçirilməsi əsas ərzaq məhsullarına olan tələbatın ödənilməsi ilə yanaşı, həm də bayram günlərində süni qiymət artımının qarşısını alır. İqtisadiyyat Nazirliyi martın 20-nə qədər Naxçıvan şəhərində və rayon mərkəzlərində bayram yarmarkaları təşkil etməli, bununla bağlı ailə təsərrüfatçıları, sahibkarlar və əhali əvvəlcədən məlumatlandırılmalıdır. Həmçinin nazirlik aid qurumlarla birlikdə dövlət ehtiyatları sahəsində tənzimləmə aparmalı, bayram ərəfəsində bazar və ticarət mərkəzlərinin, mağazaların ərzaqla normal təminatına diqqəti artırmalıdır. Yeni ailə təsərrüfatlarının və yerli xammal əsasında fəaliyyət göstərən müəssisələrin yaradılmasına üstünlük verilməlidir.

Qeyd olunmuşdur ki, muxtar respublikada ətraf mühitin qorunması sahəsində ardıcıl tədbirlər görülür, yaşıllıqlar artırılır. Ekologiya və Təbii Sərvətlər Nazirliyi yerli icra hakimiyyətləri ilə birlikdə bu il də yeni yaşıllıq zolaqlarının və meyvə bağlarının salınması, eləcə də bərpa əkinləri üçün hazırlıqlar görməli, hava şəraitinə uyğun olaraq yaşıllaşdırma tədbirlərinə başlanılmalıdır. Yaşıllaşdırma tədbirlərində ting tələbatı yerli imkanlar hesabına ödənilməli, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və "Naxçıvan Yaşıllaşdırma Xidməti" publik hüquqi şəxs bu sahədə tədbirlərə diqqəti artırmalı, tingçilik təsərrüfatlarında hazırlıqlara başlanılmalıdır. Yaz-tarla işlərinin düzgün təşkil olunması bol məhsul istehsalına təminat verir. Ona görə də Kənd Təsərrüfatı Nazirliyi muxtar respublikanın ayrı-ayrı kənd təsərrüfatı bitkiləri üzrə əkin tələbatını müəyyənləşdirməli, mütərəqqi əkin metodlarına üstünlük verilməli, torpaq mülkiyyətçiləri mövsümi aqrotexniki qaydalar barədə məlumatlandırılmalıdır. Torpaq mülkiyyətçilərinin keyfiyyətli və məhsuldar toxumlarla təminatı da diqqətdə saxlanılmalı, toxum ehtiyatının həcmi təhlil olunmalı, "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxs tərəfindən bu istiqamətdə müvafiq tədbirlər görülməli, xarici ölkələrdən gətirilən toxumların keyfiyyətinə diqqət yetirilməlidir.

Müşavirədə tapşırılmışdır ki, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti hidrotexniki qurğulara baxış keçirməli, anbarlarda su ehtiyatı yaradılmalı, kanal və arxlar, kollektor və drenaj şəbəkələri lildən təmizlənməli, yerli icra hakimiyyətləri ilə birlikdə suvarma mövsümünə hazırlıq görülməli, su bölgüsü və sudan qənaətlə istifadə diqqətdə saxlanılmalıdır. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti muxtar respublikaya yeni texnikalar və ehtiyat hissələri gətirməli, bu zaman fermer və torpaq mülkiyyətçilərinin təklifləri nəzərə alınmalı, texniki xidmət işi düzgün təşkil olunmalıdır. Qarşıdan yaylaq mövsümünün gəlməsi baytarlıq təbabəti sahəsində işlərə bu gündən başlamağı zəruri edir. Dövlət Baytarlıq Xidməti epizootiya tədbirlərini davam etdirməli, profilaktik peyvəndləmə və dezinfeksiya işləri aparılmalı, mövsümlə bağlı təsərrüfatlara baxış keçirilməli və zootexniki qaydalar izah olunmalı, baytarlıq məntəqələri və apteklər dərman preparatları ilə təmin olunmalıdır.

Ali Məclisin Sədri demişdir: Xalqımız tarixən baharın gəlişini səliqə-sahman yaratmaqla qarşılamışdır. Təbiətə qayğı və torpağa bağlılıqdan qaynaqlanan bu adətlər hazırda muxtar respublikada yaşadılır. Mart ayında Naxçıvan şəhərində və rayonlarda iməciliklər keçirilməli, təmizlik-abadlıq işlərinə diqqət artırılmalı, bayram günlərində əhalinin asudə vaxtının səmərəli təşkili üçün şərait yaradılmalıdır. Həmçinin yerli icra hakimiyyətləri və bələdiyyələr qəbiristanlıqlarda təmizlik işlərinin aparılmasını, Dini Qurumlarla İş üzrə Dövlət Agentliyi isə sakinlər tərəfindən bayramqabağı ziyarətlərin və mərasimlərin dini dəyərlərimizə uyğun təşkilini diqqətdə saxlamalıdır. Novruz bayramı hər il muxtar respublikada geniş qeyd olunur, mədəni-kütləvi tədbirlər keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Aparatı və Mədəniyyət Nazirliyi Novruz bayramının keçirilməsi ilə bağlı tədbirlər planı

Ardı 2-ci səhifədə

hazırlamalı, Naxçıvan şəhəri və rayon mərkəzləri Novruz bayramına uyğun bəzədilməli, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində və rayon mərkəzlərində ictimai iaşə xidməti və xalq gəzintiləri, eləcə də musiqi kollektivlərinin çıxışları təşkil olunmalıdır. Bir sıra mədəniyyət müəssisələri, xüsusilə də teatrlar və muzeylər bayram günlərində işləməli, tamaşalar nümayiş olunarkən sanitar-epidemioloji qaydalara əməl edilməlidir. Turizm Departamenti bayram tədbirlərinin yeri və vaxtı barədə məlumatlar hazırlayaraq internet saytında və sosial şəbəkələrdə yerləşdirməli, yerli və xarici tur-operatorlar məlumatlandırılmalı, turizm müəssisələri ilə qarşılıqlı fəaliyyət təmin edilməlidir.

Qeyd olunmuşdur ki, muxtar respublikanın kommunal xidmət müəssisələri bayram günlərində gücləndirilmiş iş rejimində fəaliyyət göstərməli, xüsusilə əhalinin daha çox cəmləşdiyi yerlərdə təmizlik işlərinə diqqət artırılmalıdır. Muxtar respublikada dezinfeksiya tədbirlərində iştirak edənlər 1 aylıq əməkhaqqı məbləğində mükafatlandırılmalı, Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi bununla bağlı məsələləri həll etməlidir. Həyata keçirilən tədbirlər kütləvi informasiya vasitələrində işıqlandırılmalı, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti verilən tapşırıqların icrası barədə Ali Məclisə məlumat verməlidir.

Ali Məclisin Sədri qarşıya qoyulan vəzifələrin icrasında uğurlar arzulamışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Şanlı Naxçıvanın fədakar salnaməçiləri


Бизим мүсаһибә

ДАҺА СУСА БИЛМӘЗДИМ...

*Ümummilli lider Heydər Əliyevin "Şərq qapısı"nın 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibəsi ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunan ilk açıqlaması idi.*

*Jurnalistika, – söhbət əslindən gedir, – qəlbin peşəsidir, könül işidir. Çətindir, məşəqqətlidir, yorucudur, amma sevirsənsə, ondan ayrıla bilmirsən...*

*Yaradıcılıqda əsas missiya da elə məhz yaradıcı olmaqdır. Kiçik bir xəbərlə mükəmməl publisistik yazının, xırda açıqlama ilə müfəssəl təhlilin arasında olan fərq, əslində, peşəkarlıq baxımından o qədər də əhəmiyyət kəsb etmir. Nə mövzuda, nə həcmdə, nə janrda yazırsansa yaz, ərsəyə gətirdiyin məhsul – mətn keyfiyyətli, lazımlı, oxunaqlı, obyektiv olmalıdır, onun cəmiyyətə faydası gərəklidir.*

*Başqa sözlə, ürəkdən gəlməlidir...*

*Həm də jurnalist ən obyektiv salnaməçidir, dünənlə bu günün və sabahın arasında etibarlı məlumat körpüsüdür, daim istinad ediləcək mənbədir...*

### 147-ci ildönümün düşüncələri

Ustadlarımız belə deyib, indi "nəsli kəsilməkdə olan zümrə"yə çevrilən əsl jurnalistlər də belə düşünür...

Təəssüf ki, milli jurnalistikamızda "əsl və saxta", "peşəkar və naşı" ayrımı heç vaxt olmadığı qədər bu gün aktualdır. Keçid dövrünün onilliklərdir, bitmədiyi jurnalistikada indi çox cavabsız sualların (onların çoxu, bəlkə də, ritorikdir, cavabları bəllidir) qarşısında aciz qalırıq...

"Yolumuz haradır?", "medianın sosial şəbəkələrə qurban verilməsi nə qədər davam edəcək?", "məsuliyyətsiz hay-küyün sədası peşəkar sözdən niyə daha çox eşidilir?", "onilliklərdir, aparılan media islahat-eksperimentləri nə vaxt bitəcək və nə zaman uğurla nəticələnəcək?", "dünyada qəzetə marağın qayıtdığı dönəmdə bizdə yazılı medianın çıxdaş edilməsi düzgündürmü?", "yeni nəsil jurnalist hazırlığı və formalaşdırılması prosesi niyə tənəzzüldədir?"... kimi çoxsaylı sualların ağır məngənəsində milli mətbuatın 147-ci ildönümünə hazırlaşırıq...

Cəmiyyətin səsləndirdiyi suallara obyektiv və real cavablar verməyə borclu olan jurnalistlərin özlərinin bu sualları cavabsız qalır...

Qələm sevdası elə budur... Sualların cavabsızdır, peşən ağırdır, amma sıxıntılar, çətinliklər içində yenə də öz qələminlə şam timsallı yaradırsan, zülmətləri yarmağa çalışırsan, cəmiyyətin azalan nurunu öləziməyə qoymursan...

Həqiqət ardınca qaçırsan, bəzən hədəfə çevrilirsən, bəzən güzəştə gedirsən, yaxud da qələminin kimlərinsə qırmasına macal verməldən onu özün qırıb bir kənara çəkilirsən... Amma, əslа, peşənə xəyanət etmirsən... Əsl jurnalist həyatı əsrlərdir ki, belə yaşanır...

Lakin bir yazının uğuru, doğurduğu müsbət əks-səda elə bir sevincdir, duyğudur ki, onun təəssüratı bütün çətinlikləri unutdurur...

Və qələminə yenə də bərk-bərk sarılırsan, öz mənəvi ağrılarını özün sağaldıb, motivasiya edirsən...

Jurnalist həyatının sıxıntılarını ən çox yaşayanlar isə bölgələrdəki həmkarlarımızdır. Əyalət mediası özünün indi heç vaxt olmadığı qədər ağır durğunluq, ciddi böhran, peşəkar kadr çatışmazlığı dövrünü yaşayır. Bölgə jurnalistikası sanki sonuncu nəfəsini verir və tükənir...

Ümumilikdə isə mətbuatımız itirir, jurnalistikamızın üzləşdiyi fəsadlar gündən-günə ağırlaşır...

Regional inkişafın dünyada ən mükəmməl nümunələrindən birini yaradan, məmləkətdə bölgələrdəki bu tərəqqini, intibahı ölkə ictimaiyyətinə ətraflı çatdıracaq, sabahkı nəsillərə salnamə kimi ötürəcək yaradıcı sistem – bölgə mətbuatı məhvə doğru gedir...

Nə yaxşı ki, bu acı mənzərədə bir istisna var...

### Naxçıvanın peşəkar sədası

...Naxçıvanda qaldığımız hotelin üst qatından ətrafa nəzər salarkən bələdçimizdən qarşıda yerləşən binaların təyinatını soruşurduq. Üçmərtəbəli yaraşıqlı binanın bir qəzetə məxsus olduğunu eşidəndə, sözün düzü, təəccübləndik. Muxtar respublikanın inzibati mərkəzinin əsas küçələrindən birində belə böyük binaya sahib olan qəzet 101 yaşlı "Şərq qapısı"dır!

"Hər bir ənənə yaşamalıdır" – yanaşması tamamilə səhvdir. Özündə mükəmməl təcrübəni əks etdirən, müasir dövrdə də aktuallığını qoruyan, faydalı və ibrətli olan, ən əsası isə, dəyərə çevrilən ənənələr yaşadılmalı, öyrənilməli, istifadə olunmalıdır, xüsusən də mətbuatda. Belə ənənələr yeni dövrün çağırışları, tələbləri, prosesləri ilə birləşəndə isə nəticə uğurlu olur. "Şərq qapısı"nda olduğu kimi...

Ölkənin yeganə rəsmi dövlət qəzeti olan "Azərbaycan" üçün Naxçıvan Muxtar Respublikasının rəsmi nəşri "Şərq qapısı" hər zaman bir köynək yaxın olub, onu əsl dost, qardaş qəzet saymışıq. İki KİV arasında onilliklərboyu səmimi və etibarlı əməkdaşlıq formalaşıb. Belə möhtəşəm binada yerləşən qardaş qəzeti ziyarət etmək isə mənəvi borcumuz idi.

Çox qəzetin tarixdə izi qalır, 101 yaşlı "Şərq qapısı" isə elə müasir dövr tarixinin özüdür. Heç də mübaliğəyə varmadıq, şişirtmədik. Bu gün Azərbaycanın bütün bölgələrində fəaliyyət göstərən, ulu öndər Heydər Əliyevin adını daşıyan hər bir mərkəzdə, muzeydə "Şərq qapısı" qəzetinin hansısa səhifəsinin fotonüsxəsini görə bilərik. Yaxud ümummilli liderin irsini araşdıranlar, Azərbaycanın Qurtuluş missiyasının başlanğıc mərhələsi olan Naxçıvan dövrünü öyrənənlər məhz əsas istinad mənbəyi kimi "Şərq qapısı"nın qapısını döyür...

Necə ki 1918-1920-ci illərin "Azərbaycan" qəzeti araşdırmaçılar üçün Xalq Cümhuriyyətinin ən mükəmməl fəaliyyət salnaməsi, o dövrdəki prosesləri dəqiq və vicdanla işıqlandıran mənbədir, eləcə də "Şərq qapısı"nın 1990-1993-cü illərdəki nömrələri tariximizin möhtəşəm dönüş mərhələsini obyektiv və əhatəli təqdim edən əsas vasitədir...

Bu gün isə Naxçıvanın inkişaf, quruculuq salnaməsinin obyektiv sədasıdır...

### Ümummilli lider Heydər Əliyevin redaktə etdiyi qəzet

Ulu öndər üçün "Şərq qapısı" hələ uşaqlığından etibarən hər zaman sevimli, doğma qəzet olub: ***"Hələ gənc ikən burada orta məktəbdə, pedaqoji texnikumda oxuyanda müxtəlif məsələləri öyrənmək üçün "Şərq qapısı"ndan çox istifadə etmişəm. O vaxtdan nüfuzlu qəzet kimi hafizəmdə qalıb".***

Ən əsası, bu qəzetə verdiyi yüksək dəyəri başqa heç bir KİV barədə söyləməyib: ***"Mən "Şərq qapısı" qəzetinin təsiri altında tərbiyələnmişəm"...***

Ötən əsrin 70-80-ci illərində o zaman başqa adlarla çıxan bu qəzeti və onun əməkdaşlarını yüksək dövlət mükafatları ilə təltif edən ümummilli lider Naxçıvana dönən kimi də ilk müsahibəsini məhz bu qəzetə verdi. "Şərq qapısı"nın 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibə ulu öndərin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında dərc olunan ilk açıqlaması idi. Bir məqamı da xatırladaq ki, 80-ci illərin sonlarında Azərbaycan mətbuatında dahi şəxsiyyət Heydər Əliyevə qarşı total qarayaxma kampaniyası aparılarkən ulu öndərin Moskvada "Teatr" jurnalına verdiyi müsahibə tərcümə edilərək "Şərq qapısı"nda dərc olunmuşdu.

"Şərq qapısı" ötən əsrin 90-cı illərinin əvvəllərində görkəmli dövlət xadimi Heydər Əliyevin əsas, daha doğrusu, yeganə tribunası idi. Yalnız ulu öndərin Naxçıvandakı fəaliyyəti, gördüyü işlər, imzaladığı tarixi sənədlər burada əks olunmurdu, həm də Xilaskarın Azərbaycan cəmiyyətinə ünvanladığı mesajlar, müstəqilliklə bağlı strateji yanaşmaları bu qəzet vasitəsilə xalqa çatdırılırdı. Muxtar respublikanın və şəxsən ümummilli liderin ətrafında yaradılmış informasiya blokadasının yarılmasında əsas fəallığı göstərən "Şərq qapısı"nın fədakar jurnalistləri həm də ulu öndərin cəfakeş təbliğatçıları idilər.

Şahidlər danışır ki, qəzetdə dərc olunacaq sənədləri, qərarları, özünün müsahibələrini, açıqlamalarını ümummilli lider redaktə edir, yaradıcı prosesə bənzərsiz töhfəsini verərmiş. Onun əsas istədiyi isə jurnalistlərin proseslərlə bağlı azad mövqeyini ifadə etmələri, mətbuatın tam müstəqilliyinin təmini idi. Görkəmli dövlət xadimi Heydər Əliyev "Şərq qapısı"nın fəaliyyətini daim himayəsində saxlayır, o çətin günlərdə nəşrini dayandırmasına imkan vermirdi. Bunlar isə ulu öndərin sonradan daha geniş miqyas alaraq Azərbaycan mətbuatının inkişafına, söz və mətbuat azadlığının təmininə yönələn fəaliyyətinin ilk qığılcımları idi.

1996-cı ildə yubileyi ilə bağlı qəzetə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev təbrik məktubu da göndərib: ***"75 illik şərəfli yaradıcılıq yolu keçmiş "Şərq qapısı" qəzeti öz səhifələrində muxtar respublikanın ictimai-siyasi, iqtisadi və mədəni həyatını, əhalisinin qayğı, istək və arzularını dolğun əks etdirməklə oxucularının rəğbətini qazanmışdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra "Şərq qapısı" qəzetinin kollektivi öz fəaliyyətində əsaslı dönüş yaratmış, ölkəmizdə gedən yeni cəmiyyət quruculuğu və demokratik dəyişikliklərin həyata keçirilməsi prosesinə fəal qoşulmuşdur"...***

### Azərbaycanda ən böyük binası olan qəzet

Beləliklə, "Şərq qapısı"ndayıq. Qəzetin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, filologiya üzrə fəlsəfə doktoru Mehriban Sultan tanınmış qələm sahibidir, peşəkar jurnalistdir, həm də tədqiqatçı-alimdir. Onunla bu möhtəşəm binanı gəzirik. "Bilirsiniz ki, Azərbaycanda ən böyük bina sizin qəzetə məxsusdur?" sualımıza gülümsünür və "Bu, böyük etimaddır. Etimada da məsuliyyətli işimizlə, yüksək yaradıcı keyfiyyətlə cavab verməyə çalışırıq", – deyir.

2010-cu ildə mətbuat günündə Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən açılan bu binanı, əslində, 4 mərtəbəli saymaq olar. Binada həm də dünya standartlarına uyğun avadanlıqlarla təchiz edilən, poliqrafiyanın ən müasir trendlərini əxz edən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi yerləşir.



Gündəlik nəşrin iş qrafikinin gərgin olduğunu burada da görürük. Redaksiyada isə müxbirlər kompüter arxasında məqalələrini hazırlayır, korrektorlar mətnlər üzərində düzəlişlər edir, yığıcılar və dizaynerlər tərtibatla məşğuldurlar, redaktor heyəti isə ilkin qəzet səhifələri üzərində çalışır. Bütün otaqlar çox işıqlıdır, mebellə, müasir avadanlıqlarla, kompüterlərlə tam təmin olunublar. Yəni binanın çölü də gözəl, içi də...

Həmkarlarımızla söhbətləşirik. 20 ildən artıqdır ki, "Şərq qapısı"nda yaradıcılıq fəaliyyəti ilə məşğul olan məsul katib Muxtar Məmmədovun muxtar respublikada jurnalist kadrların formalaşması baxımından da müstəsna əməyi var. Onun müavini Məhəbbət Mirzəyeva 25 illik jurnalist təcrübəsinə malik qələm sahibidir. Səbuhi Həsənovun muxtar respublikanın tarixi, turizm potensialı, iqtisadiyyatı, həyata keçirilən sosial siyasəti ilə bağlı məqalələri mükəmməl araşdırmalardır. İqtisad elmləri namizədi Əli Cabbarov səmərəli jurnalist fəaliyyəti ilə oxucu rəğbəti qazanıb.






Və "Şərq qapısı"nda gənclik ruhunu, gənclərin iştirakını yaradıcılığın hər mərhələsində aydın müşahidə edirik...

Qəzetdə 10-dan çox jurnalistin çalışdığını deyən Mehriban Sultan qeyd edir ki, yaradılan dövlət qayğısı sayəsində son illərdə gənc kadrlara yüksək etimad göstərilir, onlar qocaman, təcrübəli jurnalistlərlə çiyin-çiyinə çalışırlar ki, bu da jurnalistikada nəsillərarası əlaqə yaratmaqla təcrübə mübadiləsinə, jurnalist potensialının gəncləşməsinə xidmət edir.

Hazırda ölkə üzrə jurnalistikanın ən ağrılı problemlərindən biri olan bu məsələ "Şərq qapısı"nda, həqiqətən də, uğurlu həllini tapıb. Bunu eşitdiklərimiz yox, gördüklərimiz təsdiqlədi. Ali Məclis Sədrinin təşəbbüsü ilə Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasında təhsil alan tələbələr qəzetdə davamlı təcrübə keçir, peşənin incəliklərini öyrənirlər. Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən bu diqqətin nəticəsidir ki, qəzetdə təcrübəli jurnalistlərlə yanaşı, xeyli gənc əməkdaş da çalışır. Burada,

*Ardı 3-cü səhifədə*




hətta tələbə də işə götürülür, əlbəttə ki, bacarığı, istedadı qaneedici olanda... "Şərq qapısı" hami təşkilat kimi Naxçıvan Dövlət Universitetinin Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrası ilə birgə muxtar respublikada ali təhsilli mütəxəssis hazırlığı, tələbə-jurnalistlərin mətbuatda çıxışlarının təşkili ilə bağlı davamlı tədbirlər həyata keçirir. Ən əsası isə gənc jurnalistlərin bütün təşəbbüslərinə açıqdırlar.

### Nədən yazmalı?

Ötən il qəzetin 100 illik yubileyi muxtar respublikada silsilə tədbirlərlə geniş qeyd edilib. Ali Məclis Sədrinin sərəncamları ilə redaksiya əməkdaşlarının maaşları artırılıb, fəxri adlar, mükafatlarla təltif olunublar.

Oxucular tərəfindən rəğbətlə qarşılandıqlarını, məqalələrin müsbət əks-səda doğurduğunu söyləyən həmkarlarımıza "bəs təsisçinin sizdən tələbi nədir?" sualını ünvanlayırıq. Məlum olur ki, tələb yoxdur, çünki burada qəzetin fəaliyyətinə müdaxilə yolverilməzdir. Sadəcə, "Şərq qapısı"na Ali Məclis Sədrinin tövsiyəsi var: dövrün tələbinə uyğun, insanları düşündürən yazıların hazırlanması, çevik informasiya siyasəti aparılması, milli dəyərlərimizin, adət-ənənələrimizin təbliği, vətəndaşımızda, gənclərimizdə vətənpərvərlik, yurd sevgisi hissləri və milli duyğuların güclənməsinə töhfə, Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişaf, quruculuq salnaməsini yaratmaq və tarixləşdirmək, bütün yaşayış məntəqələrinin, eyni zamanda ucqar dağ və sərhəd kəndlərinin həyatının qəzet səhifələrində obyektiv əksini tapması...

Hələ, üstəlik, tənqidi materialların artırılması da xüsusi istənilir...

Redaksiyada olarkən dəyərli publisistik yazıların müəllifi Gülcamal Tahirova bizdən müsahibə aldı və geniş material "Şərq qapısı"nda dərc olundu. Həmçinin Naxçıvan televiziyasının əməkdaşı Adilə Səfərovanın telereportajı da muxtar respublikanın mərkəzi telekanalının xəbərlərində yayımlandı.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi və onun mətbəəsi ilə tanış oluruq. Buradakı cild, çap sexlərində olan avadanlıqların əksəriyyəti alman texnologiyasıdır ki, yüksək texnologiyanın tətbiqi işləri keyfiyyətli, yüksək poliqrafik göstəricilərlə, sərfəli qiymətlərlə həyata keçirməyə imkan verir.

Mətbəədə kadr hazırlığına da diqqət yetirilir. Müasir avadanlıqların düzgün idarə olunması, texniki qulluğun göstərilməsi, fəaliyyətin günün tələbləri səviyyəsində qurulması üçün işçilər Türkiyə və Bakıda müxtəlif kurslarda olmuş, biliklərini təkmilləşdirmiş, avadanlıqların tam funksional olaraq idarə olunmasını öyrənmişlər. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi 10 qəzetdən əlavə kitab, miniatür kitab, məktəbli ləvazimatı, jurnal və digər çap materiallarının hazırlanmasını həyata keçirir.

### Naxçıvanda gur yanan maarifçilik məşəli

Səfər müddətində bizə yardımını əsirgəməyən, yolyoldaşımız olan Ali Məclis Aparatının baş məsləhətçisi Rəmzi İbrahimovdan muxtar respublikada KİV-in ümumi fəaliyyətini öyrənirik. Hazırda Naxçıvanda "Şərq qapısı" ilə yanaşı, 8 şəhər və rayon qəzeti, 3 televiziya, 3 radio və 6 nəşriyyat fəaliyyət göstərir, kütləvi informasiya orqanlarında 400-dən artıq əməkdaş çalışır. Sürətli internetə çıxış imkanlarının yaradılması və rəqəmsal yayıma keçid Naxçıvanın informasiya blokadasının yarılmasına, qədim diyar haqqında məlumatların daha operativ çatdırılmasına imkan verir.

Media sahəsində inkişafın keyfiyyətcə yeni mərhələyə yüksəldiyini söyləyən Rəmzi İbrahimov əlavə edir ki, mətbuat sahəsində çalışanların əməkhaqları artırılıb, fərqlənən jurnalistlər fəxri adlara layiq görülüb: "Hərtərəfli qayğı KİV-də keyfiyyət dəyişikliyi yaradıb. Bunun nəticəsidir ki, qəzetlərin maddi-texniki bazası mərhələli şəkildə möhkəmləndirilib, yaradıcılıq imkanları artırılıb. 2018-ci ildə "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manata yaxın olan müxtəlif avadanlıqlar alınıb. Dövlət teleradiosuna yeni çəkiliş və efir avadanlıqları alınıb. Bu gün Naxçıvan televiziyası, o cümlədən "Naxçıvanın səsi" radiosu və "Kanal 35" televiziyası ən müasir rəqəmsal bazaya malikdir. "Nuhçıxan" İnformasiya Agentliyi muxtar respublika ilə bağlı ən mühüm informasiya, təhlil və analitik məqalələri, foto və videoinformasiyaları dünyaya çatdırır. Naxçıvan Mətbuat Şurasının 2019-cu ildən etibarən Ümumdünya Mətbuat Şuraları Assosiasiyasına üzv olması isə Naxçıvan mediasının beynəlxalq müstəviyə çıxarılma səviyyəsini təsdiqləyir, eyni zamanda bu sahədə əlaqələrin genişlənməsinə də zəmin yaradır. Elə ötən il ərzində muxtar respublikada Medianın İnkişafı Agentliyi yaradılıb, dövlət teleradiosunun fəaliyyəti yenidən təşkil olunub, Naxçıvan Dövlət Universiteti televiziyasının bölgə miqyasında yayımı təmin edilib".

Naxçıvan səfərimizdə müşahidə etdiyimiz bir maraqlı məqama da toxunaq. Hərbi hissələrdə, məktəblərdə, universitetlərdə, dövlət müəssisələrində, bir sözlə, bu diyarın hansı məkanında olduqsa, "Oxunması zəruri olan kitablar" stendini və orada xeyli kitabı gördük. Öyrəndik ki, muxtar respublika Ali Məclisinin



Sədri cənab Vasif Talıbovun təşəbbüsü ilə 2017-ci ildə Naxçıvanda maarifçiliyə əhəmiyyətli töhfə olan bir proses başlanılıb, xüsusən də gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın və dünyagörüşün formalaşdırılmasına xidmət edən kitablar müəyyənləşdirilib.

Bu kitabların çapına, müvafiq mərkəzlərdə, guşələrdə yerləşdirilməsi işinə dərhal başlanılıb və qısa müddətdə Naxçıvanın dörd bir yanında 33 kitabın timsalında yeni maarifçilik məşəli alovlanıb.

Kitabların siyahısına nəzər salırıq, mükəmməl ədəbi zövq, əsl milli hisslər, yüksək bəşəri duyğular əsasında hazırlandığı dərhal diqqəti cəlb edir. Ümummilli lider Heydər Əliyevin "Yeni 2021-ci il, Yeni əsr və Üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti" ilə başlayan silsilədə "Kitabi-Dədə Qorqud" dastanı, "Nizaminin hikmət və nəsihətləri", Nəsirəddin Tusinin "Əxlaqi-Nasiri", Cəlil Məmmədquluzadənin "Hekayələr", Qurban Səidin "Əli və Nino", Məmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam", Seyid Əzim Şirvaninin "Seçilmiş əsərləri", Sədi Şirazinin "Gülüstan" və digər belə milli ruhlu əsərlərlə yanaşı, həm də dünya ədəbiyyatının inciləri – Teodor Drayzerin "Dahi", Cek Londonun "Həyat eşqi", Ernest Heminqueyin "Qoca və dəniz", Nikolo Makiavellinin "Hökmdar", Antuan de Sent-Ekzüperinin "Balaca şahzadə" kimi şedevrləri əks olunub. Gənclərə tövsiyə edilən kitablar içində ingilis casusunun etirafları əsasında radikal dini təriqətləri ifşa edən "Mister Hemferin xatirələri" əsəri ilə yanaşı, "İslamda müdrik kəlamlar"ın da olması, ABŞ-ın 16-cı Prezidenti Avraam Linkolnun oğlunun müəlliminə məktubu ilə bərabər, Rəşidəddin Fəzlullahın "Oğuznamə" əsərinin də əks edilməsi, həqiqətən də, alqışlanası, ibrət götürüləsi hadisədir.

Bu əsərləri oxuyan, onların təsiri ilə formalaşan yeniyetmələr, gənclər həm məmləkətə layiqli vətənpərvər övladlartək yetişəcək, həm də dünyaya özlərini modern təfəkkürlü, humanizm ənənələrinə sadiq vətəndaş kimi təqdim edə biləcəklər. Belə təşəbbüslərin geniş miqyasda davamı və gerçəkləşməsi isə maarifçiliklə bərabər, dövlət maraqlarına da birbaşa xidmət edir.

Naxçıvanda mətbuatın təməli 101 il öncə "Cavanlar həyatı" qəzeti ilə qoyuldu. Bu şanlı bayrağı indi peşəsinə məsuliyyətlə, qəleminə sədaqətlə daşıyan "Şərq qapısı", "Nuh Yurdu", "Yeni Fikir", "Şərurun səsi", "Şərqin səhəri", "El həyatı", "Arazın səsi", "Oğuz səsi", "Yeni həyat", "Oğuz yurdu" qəzetləri, informasiya portalları, telekanallar, radiolar elə əsl cavanlıq şövqü ilə Yeni Naxçıvanın nailiyyət, yüksəliş, quruculuq salnaməsini yaradırlar...

Salnaməçilərin yazdıqları gələcəyə ünvanlanan tarixdir. Onun obyektiv, dürüst olması isə gələcək nəsillərin düzgün nəticə çıxardıb, ədalətli rəy verməsinin əsas zəminidir. Bu dilbər diyardakı həmkarlarımız bu şərəfli işi də yüksək vətəndaş məsuliyyəti, peşəkar jurnalist bacarığı ilə layiqincə həyata keçirirlər...

*Yeni Naxçıvanın salnaməsi yalnız yazılı mətnlərə əks olunmur. Muxtar respublikanın dağ kəndindən inzibati mərkəzinədək hər bir yerdə real quruculuq ünvanları ilə gələcək nəsillərə inkişafın izləri kimi ötürülür...*

*"Səndən ötrü can verməyə cümlə hazırız!" hayqırtısının ucaldığı ən yüksək sərhəd postundan "Üç rəngli bayrağınla məsud yaşa!" sədalarının kəsilmədiyi uşaq bağçasınadək hər məkanda Vətənə əbədi məhəbbət duyğularına çevrilir...*

*Ümummilli lider Heydər Əliyevin yaratdığı, Prezident cənab İlham Əliyevin zirvələrə ucaltdığı Yeni Naxçıvanın həm də muxtar respublika rəhbərinin fədakarlığı ilə gündən-günə miqyası genişlənən inkişafı, firavanlığı, rifahı gələcək nəsillərə ərməğan edilən əmanətdir...*

*Qüdrətli Azərbaycanın, onun ayrılmaz diyarı Yeni Naxçıvanın ən möhtəşəm salnaməsini isə Zəngəzur dəhlizi ilə bölgəyə gələcək Müzəffər Komandanını sərhəddə qarşılayacaq zəhmətkeş, sədaqətli, əzmkar naxçıvanlılar yazacaq...*

**İxtiyar HÜSEYNLİ**

***"Azərbaycan" qəzeti, 25 fevral 2022-ci il***

***Bakı-Naxçıvan-Bakı***

## Xocalı faciəsi xalqımızın qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir

XX əsrin böyük faciəsi sayılan Xocalı soyqırımının törədilməsindən 30 il ötür. Dinc sakinlərin yaşadığı Xocalı şəhəri 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni işğalçıları tərəfindən məhv edilərək yerləyeksan edilmişdir. Bu hərbi cinayət zamanı erməni silahlı dəstələri SSRİ dövründə Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayın köməyi ilə əliyalın xocalılıları amansızcasına qətlə yetirmiş, insanlara ağlasığmaz işgəncələr vermiş, uşaq, qoca, qadın demədən hamısını vəhşicəsinə öldürmüşlər. Erməni şovinistlərinin qəddarlıqla həyata keçirdiyi bu amansız və qanlı cinayətdə Xocalı şəhərinin sakinləri özlərini əsl qəhrəman kimi aparmış, son nəfəslərinədək düşmən qarşısında əyilməmişlər. Xocalı soyqırımı zamanı 106 qadın, 63 uşaq, 70 qoca olmaqla, 613 şəxs məhz azərbaycanlı olduqlarına görə ağlasığmaz vəhşiliklə qətlə yetirilmiş, 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər isə girov götürülmüşdür. Ümummilli liderimiz Heydər Əliyev bu faciəni bəşəriyyətə qarşı yönəlmiş ən qəddar soyqırımı kimi dəyərləndirərək deyirdi: ***"Xocalı soyqırımı, ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaqdır. O gecə, o günlər həlak olanlar, dünyadan gedənlər Azərbaycanın əziz vətəndaşlarıdır, onlar respublikamızın ərazi bütövlüyü yolunda qurban olublar, xalqımızın milli azadlıq yolunda apardığı mübarizənin qurbanlarıdır, şəhidləridir. Onların faciəli surətdə həlak olması, şəhid olması Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir".***

Xocalı mühüm geostrateji mövqeyi ilə seçilir. Burada hava limanı da yerləşir. Ermənilərin diqqətini Xocalıya yönəltməsinin əsas səbəbi də bu şəhərin işğal edilməsi ilə Qarabağa nəzarətin tam ələ keçirilməsi, eyni zamanda hava limanı vasitəsilə Ermənistanla daha rahat əlaqə yaradılmasına nail olmaq idi. Strateji mövqeyi ilə yanaşı, Xocalı həm də ölkəmizin zəngin tarixə malik ərazilərindən biridir. Bu ərazinin tarixində Azərbaycanın Son Tunc və Erkən Dəmir dövrləri mədəniyyətinə aid kurqanlar özünəməxsus yer tutur. Xüsusilə tunc silahları və başlıca olaraq boz rəngli keramika məmulatı ilə fərqlənən bu mədəniyyətə məxsus abidələr ilk dəfə Xocalı yaxınlığında, daha sonra isə Qarabağın böyük bir hissəsində və Gədəbəydə aşkara çıxarılmış, əsas yaşayış məntəqələrinin adına görə Xocalı-Gədəbəy mədəniyyəti adlandırılmışdır. Tarixçilər müəyyən ediblər ki, Xocalı-Gədəbəy mədəniyyəti eradan əvvəl V-III minilliklərdə Azərbaycanda formalaşan Kür-Araz mədəniyyətinin və ondan sonra burada mövcud olan Qarabağ mədəniyyətinin varisidir. Xocalı mühüm arxeoloji abidələri ilə Azərbaycanın qədim tarixini özündə əks etdirdiyindən ermənilərin burada həyata keçirdikləri soyqırımının bir məqsədi də azərbaycanlılara məxsus mədəniyyəti yer üzündən silmək idi. Təsadüfi deyil ki, Xocalı şəhəri işğal ediləndən dərhal sonra onun ətrafında olan və dünyanın ən qədim məzarlıqlarından sayılan Xocalı qəbiristanlığı da xüsusi texnika ilə dağıdılmışdır.

Xocalı faciəsinə aparan yol hələ XX əsrin əvvəllərindən başlamışdı. Bu yaşayış məntəqəsinin azərbaycanlı əhalisi bir əsrdə 3 dəfə qırğınlara məruz qalmışdır. Xocalı birinci dəfə 1905-ci ildə, sonra isə 1918-ci ildə yandırılmış, 1992-ci ildə isə Xocalıda daha qanlı, daha dəhşətli faciə törədilmişdir. Xocalının işğalı düşmənin əvvəlcədən hazırladığı plan üzrə baş tutmuşdu. Belə ki, şəhər hələ 1991-ci ilin oktyabr ayından blokadaya alınmışdı. 1991-ci ilin oktyabrında Tuğ və Səlakətin kəndləri işğal olunandan sonra Xocavənd də ermənilərin nəzarəti altına keçmişdi. 1992-ci ilin yanvarında ermənilər Xocalı ətrafındakı Axullu, fevral ayında isə Malıbəyli və Quşçular kəndlərini işğal etmişdilər. Həmin kəndlərin işğalından bir neçə gün sonra ən iri yaşayış məskənlərindən olan Qaradağlı 366-cı motoatıcı alayın, eləcə də müxtəlif xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçmişdi. Xocalını əhatə edən Daşbulaq, Mehdikənd, Ballıca, Həsənabad, Pirəməki, Noraguh və Mirzəcan kəndlərində xeyli qüvvə toplanmışdı. Avtomat və pulemyotlarla silahlanmış yüzlərlə erməni yaraqlısının toplandığı bu kəndlərdə çox sayda raket qurğuları və zirehli texnikalar vardı. Fevralın ortalarından Xocalı erməni silahlıları tərəfindən mühasirəyə alınmışdı və hər gün ağır texnikadan atəşə tutulurdu. İşğal planı 1992-ci il fevralın 25-dən 26-na keçən gecə təşkil olunmuş, Ermənistan silahlı qüvvələrinin bölmələri ilə yanaşı, sovet ordusunun 366-cı motoatıcı alayı da 7 min nəfərin yaşadığı Xocalı şəhərinə basqın etmiş, günahsız insanları, dinc sakinləri xüsusi amansızlıqla qətlə yetirmişlər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımı haqqında demişdir: ***"Xalqımızın qəhrəman, igid övladları torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid oldular. Ancaq bütün bu tarixin içində Xocalı faciəsinin xüsusi yeri var. O da ondan ibarətdir ki, bir tərəfdən bu, hər bir Xocalı sakininin öz torpağına, millətinə, Vətəninə sədaqətliliyinin nümunəsidir. İkinci tərəfdən də Ermənistanın millətçi, vəhşi qüvvələri tərəfindən Azərbaycana qarşı edilən soyqırımıdır – vəhşiliyin görünməmiş bir təzahürüdür".***

Xocalı soyqırımının şahidi olmuş müxtəlif xarici ölkə jurnalistləri onu bəşəriyyətin böyük faciəsi adlandırmışlar. Fransadan olan jurnalist Jan-İv Yunet yazır: "...Biz Xocalı faciəsinin şahidi olduq, yüzlərlə həlak olmuş dinc əhalinin – qadınların, kişilərin, qocaların və Xocalı müdafiəçilərinin meyitlərini gördük. Bizə helikopter verdilər, biz quş uçuşu hündürlüyündən Xocalı ətrafında nə gördüksə, hamısını çəkirdik. Bu, dəhşətli mənzərə idi. Mən müharibələr haqqında, alman faşistlərinin qəddarlığı barədə çox eşitmişəm, lakin ermənilər 5-6 yaşlı uşaqları, dinc əhalini öldürərək onları geridə qoyublar".

Araşdırmalar zamanı müəyyən olunmuşdur ki, Xocalıda istifadəsi qadağan olunmuş mərmilərdən və kimyəvi silahlardan istifadə edilmişdir. Bu məlumat Rusiyanın "Memorial" hüquq-müdafiə mərkəzinin açıqlamasında da öz əksini tapmışdır. Bütün bu faktlar Ermənistanın Cenevrə Konvensiyasının protokollarını pozaraq dinc sakinlərə qarşı soyqırımı həyata keçirdiyini təsdiqləyir.

Təəssüflər olsun ki, Xocalı soyqırımından sonra həmin dövrdə Azərbaycana rəhbərlik edənlər bu faciəyə biganə münasibət göstərmiş, xalqımıza qarşı törədilən cinayəti örtbasdır etməyə çalışmışlar. Yalnız həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyev ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat vermiş, faciəni törədənləri və səbəbkarların məsuliyyətə cəlb olunmasını tələb etmişdir. Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin

*Ardı 4-cü səhifədə*

fevralında ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar hər il fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Görkəmli dövlət xadimi Heydər Əliyevin "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" 1997-ci il fevralın 25-də imzaladığı Sərəncamla hər il fevral ayının 26-sı saat $17^{00}$-da ölkəmizdə Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunur.

Ümummilli lider Heydər Əliyev demişdir: ***"İnanıram ki, bu gün xalqımız müstəqil Azərbaycan dövlətində daha da mətinləşib və dövlətimizin müstəqilliyini qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızın azad edilməsi uğrunda yenilməz mübarizə aparmaq əzmindədir. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan dövləti xalqımızın bu müqəddəs amallarının gerçəkləşməsi yolunda var qüvvəsini sərf edəcək, soydaşlarımıza qarşı törədilmiş qanlı cinayətlərin, o cümlədən Xocalı faciəsinin bütün günahkarlarının lazımınca cəzalandırılması üçün bütün tədbirləri görəcəkdir".*** Bəli, bu gün hər bir azərbaycanlı Xocalı soyqırımının günahsız qurbanlarının əziz xatirəsini ehtiramla yad etməklə yanaşı, ata vəsiyyətini yerinə yetirən Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində düşmən üzərində qazandığımız Tarixi Qələbənin qürurunu da yaşayır. Qəhrəman ordumuz Ali Baş Komandanımızın əmri ilə 2020-ci il sentyabrın 27-də başladılan "Dəmir yumruq" əməliyyatı ilə düşməni darmadağın edərək doğma Qarabağımızı 30 ilə yaxın əsarətdən xilas etdi. Şanlı Azərbaycan Ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının icraçılarından da var idi. ***"Biz Xocalı soyqırımı qurbanlarının qisasını döyüş meydanında aldıq"***, – deyən cənab İlham Əliyev çıxışlarında bu fikri də səsləndirmişdir: ***"Biz heç vaxt imkan verə bilmərik ki, bizim bölgədə erməni faşizmi baş qaldırsın. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan yenə də Azərbaycan üçün potensial təhdidə çevrilsin. Əgər bunu görsək, onu yerindəcə məhv edəcəyik. Bunu hər kəs bilməlidir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2022-ci il 28 yanvar tarixli "Xocalı soyqırımının otuzuncu ildönümü haqqında" Sərəncamında qeyd olunur ki, "*Xocalı qətliamı Ermənistanın uzun illərdən bəri Azərbaycana qarşı həyata keçirdiyi planlaşdırılmış etnik təmizləmə və təcavüz siyasətinin tərkib hissəsi idi. Soyqırımının törədilməsinə görə Ermənistanın ozamankı siyasi-hərbi rəhbərliyi məsuliyyət daşıyır... Ermənistanın daim mülki əhalini hədəf seçən təxribatlarına və hərbi təcavüzünə cavab olaraq, 2020-ci il sentyabrın 27-də Azərbaycan xalqı əzəli torpaqlarının işğaldan qurtarılması, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin yerinə yetirilməsi və tarixi ədalətin bərpa edilməsi uğrunda Vətən müharibəsinə qalxdı... 44 gün sürən döyüşlər nəticəsində rəşadətli Azərbaycan Ordusu parlaq qələbə qazanaraq doğma torpaqlarımızı işğaldan azad etdi. Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət!" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir... Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq".*

Bu gün Azərbaycan dövlətinin apardığı uğurlu xarici siyasət nəticəsində dünya dövlətləri də artıq ermənilərin törətdikləri bu soyqırımına öz münasibətlərini bildirir və Xocalıda törədilmiş qətliamı kəskin pisləyirlər. Erməni faşizminə tarixdə ən böyük zərbə olan 44 günlük Vətən müharibəsi və qazandığımız Tarixi Qələbə ilə Xocalı soyqırımı qurbanlarının, eləcə də torpaq uğrunda canını fəda edən bütün Vətən övladlarının qisası alındı.

**"Şərq qapısı"**

## "Microsoft" korporasiyası tərəfindən keçirilən vebinarlar davam edir



Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin təşkilatçılığı ilə "Microsoft" korporasiyasının Azərbaycan nümayəndəliyi tərəfindən keçirilən vebinarların davamı olaraq Naxçıvan Dövlət Universitetində təhsil alan tələbələrə "Təhsildə rəqəmsal transformasiya və innovasiyaların rolu", "Müasir virtual iş yeri", "Verilənlərin (Data) intellektual təhlili və vizuallaşdırılması" və "Maarifləndirmə, rəqəmsal transformasiya üçün bacarıqların inkişaf etdirilməsi" mövzularında təlim keçirilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Universitetinin rektoru, dosent Elbrus İsayev bildirib ki, bu gün muxtar respublikada dövlətimiz tərəfindən təhsilin inkişafı sahəsində mühüm tədbirlər həyata keçirilir, tələbələrin müasir biliklərə yiyələnmələri üçün hərtərəfli şərait yaradılır.

Naxçıvan Muxtar Respublikasının rabitə və yeni texnologiyalar naziri Vüsal Sevdimaliyev rabitə və yeni texnologiyalar sahəsinə göstərilən dövlət qayğısından danışıb və tədbirin mahiyyəti haqqında ətraflı məlumat verib. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər haqqında" Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin aid ixtisasları Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin hamiliyinə verilib. Ötən müddət ərzində birgə təşkilatçılıq yolu ilə tələbələrin müasir tədris vasitələrindən istifadə edərək öz bilik və bacarıqlarını inkişaf etdirmələri üçün bir sıra tədbirlər həyata keçirilib. Qeyd edilib ki, bu vebinar da hamilik çərçivəsində keçirilən tədbirlərin davamıdır və vebinar üçün seçilmiş mövzular bu gün üçün aktual sayılır.

"Microsoft" korporasiyasının Azərbaycan nümayəndəliyinin rəhbəri, Amerika Ticarət Palatasının Rəqəmsal Texnologiyalar və İnnovasiyalar Komitəsinin sədri, Azərbaycan Sahibkarlar Konfederasiyasının İnnovasiyalar və Rəqəmsal Həllər Komissiyasının üzvü Qaçay Mirzəyev dünyanın ən qabaqcıl texnologiyalarının tətbiqindən bəhs edib. Qeyd olunub ki, internet olan istənilən yerdən iş yeri və iş vaxtının idarə edilməsi ilə bağlı proqramın yaratdığı imkanlar müvafiq əmək fəaliyyəti üzrə məhsuldarlığa heç bir neqativ təsir olmadan işçiyə məsafədən (distant) işləmək seçimi verir. Bu isə, öz növbəsində, fəaliyyətini uğurlu beynəlxalq təcrübəyə uyğun innovativ həllərin tətbiqi ilə optimallaşdırmaq, o cümlədən COVID-19 pandemiyasının yaratdığı çətinliklər şəraitində daha təhlükəsiz əmək şəraitini təmin etmək imkanı verir.

"Microsoft" sertifikatlı təlimçi, təhsil layihələri meneceri Emin Axundov "Təhsildə rəqəmsal transformasiya və innovasiyaların rolu" mövzusunda çıxış edərək bildirib ki, bütün sahələr kimi, təhsil sahəsi də hazırda ciddi rəqəmsal transformasiya yaşayır. Pandemiya rəqəmsal həllərin təhsildə tətbiqini daha da sürətləndirdi, o cümlədən məsafədən təhsil geniş tətbiq edilməyə başladı.

Vebinarda, həmçinin "Microsoft" sertifikatlı təlimçi Fuad Tağıyev verilənlərin intellektual təhlili və vizuallaşdırılması haqqında ətraflı məlumat verib, "Microsoft" sertifikatlı təlimçi Fərhad Kərimov rəqəmsal transformasiyadan danışıb.

Vebinarda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

## "Reproduktiv sağlamlıq və ailə dəyərləri" mövzusunda tədbir

*Şərur rayonunun Çərçiboğan kəndində keçirilən tədbiri Şərur Rayon İcra Hakimiyyəti başçısının müavini Aysel Zeynalabdinova açaraq belə tədbirlərin əhəmiyyətindən danışmışdır.*



Tədbirdə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək bildirmişdir ki, milli dəyərlərin, adət-ənənələrin qorunub saxlanılması və gələcək nəslə ötürülməsində ailənin böyük rolu vardır. Ailələrin möhkəm olması üçün hər iki tərəf ailənin bütövlüyünün qorunması, böyüyəcək övladların hərtərəfli və sağlam böyüməsi üçün çalışmalıdır. Həmçinin qadınların sağlamlığının qorunması, yeni nəslin sağlam doğulması və böyüməsi üçün ailə planlaşdırılması məsələsinə xüsusi diqqət verilməsi, erkən nikahların fəsadları, sağlam uşaqların doğulması üçün qadınların hamiləlik dövründə müvafiq analizlərdən keçirilməsi, nikahdan əvvəl irsi qan xəstəliklərinin, virusların yoxlanılmasının vacibliyi haqqında tədbir iştirakçılarına ətraflı məlumat verilmişdir. Eyni zamanda bu sahə ilə bağlı qanunvericiliyin müvafiq tələbləri tədbir iştirakçılarının diqqətinə çatdırılmışdır.

Ramilə Seyidova Şərur rayonunun Çərçiboğan kəndi üzrə sağlamlıq imkanları məhdud uşaqlar haqqında da məlumat verib.

"Uşaqların sağlamlıq imkanları məhdud olaraq doğulmasına səbəb olan əsas amillər" mövzusunda isə tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək qadınların sağlamlıqlarının qorunması yolları, reproduktiv sağlamlıq, həmçinin Şərur rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranması səbəbləri barədə slayd vasitəsilə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Polis Məktəbinin kursantları üçün mühazirə



Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin ekspertləri tərəfindən Daxili İşlər Nazirliyinin Orta İxtisas Polis Məktəbinin kursantları üçün "Məhkəmə-ballistik ekspertizasının tarixi" mövzusunda mühazirə təşkil edilmişdir.

Mühazirəni giriş sözü ilə Polis Məktəbinin rəis müavini, polis mayoru Fariz Nəsirov açaraq Məhkəmə Ekspertizası Mərkəzi ilə əməkdaşlığın əhəmiyyəti haqqında məlumat verib.

Mərkəzin ballistik və trasoloji ekspertizalar bölməsinin rəisi əvəzi, kiçik ədliyyə müşaviri Səməd Şahtaxtinski və həmin bölmənin eksperti, I dərəcəli ədliyyə qulluqçusu Cavid Əliyevin mövzu ilə əlaqədar məruzələri dinlənilib. Sonra slayd vasitəsilə məhkəmə-ballistik ekspertizasının yaranması və inkişaf tarixi, tədqiqatlarda bu gün də istifadə olunan avadanlıqların ixtirası və ilk tətbiqləri, ballistik tədqiqatlar aparılaraq silahların tətbiqi ilə törədilən bəzi cinayət faktlarının açılması və təqsirli şəxslərin ifşa olunması nümunələri izah edilib.

Sonda videoçarx nümayiş etdirilib, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

## Dövlət Orqanları İşçilərinin Reyestri Proqramı təqdim olunub

Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzində keçirilən tədbiri giriş sözü ilə mərkəzin sədri İsmayıl Qəribli açaraq bildirib ki, Dövlət İmtahan Mərkəzinin fəaliyyətinin təkmilləşdirilməsi üçün mütəmadi tədbirlər həyata keçirilir. İnnovativ yeniliklərin tətbiqinin davam etdirilməsi nəticəsində mərkəzin 2 proqram təminatı yenidən işlənib ki, onlardan biri də bu gün təqdim olunan Dövlət Orqanları İşçilərinin Reyestri Proqramıdır.

Bildirilib ki, reyestrin idarə olunması, məlumatların avtomatlaşdırılmış qaydada toplanması, dəyişdirilməsi, saxlanılması, mühafizəsi, həmçinin sorğu əsasında əldə edilməsi xüsusi proqram təminatı vasitəsilə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçiriləcək. Yeni proqram işçilərin "elektron şəxsi işi"nin yaradılmasına imkan verir.

İsmayıl Qəribli deyib ki, reyestrin yaradılmasında məqsəd dövlət orqanlarında xidmət keçən işçilər haqqında məlumatları toplamaq, təzələmək və təhlil etmək, onların qulluqda yüksəliş yolu ilə seçilməsi, yerləşdirilməsi, ixtisas dərəcələrinin artırılması və digər məsələlərin həllində bu məlumatlardan istifadə etmək, müvafiq hallarda normativ-hüquqi aktlarla müəyyən edilmiş qaydada dövlət orqanlarını həmin məlumatlarla təmin etməkdir.

Sonra mərkəzin baş məsləhətçisi Məmməd Babayev çıxış edərək slayd vasitəsilə Dövlət Orqanları İşçilərinin Reyestrinin aparılması qaydaları haqqında məlumat verib.

Sonda dövlət orqanlarının səlahiyyətli nümayəndələrinə istifadəçi adı və şifrələr təqdim olunub, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Qrip əleyhinə peyvənd aparılır

Naxçıvan Muxtar Respublikasında hər il olduğu kimi, cari ildə də qrip əleyhinə vaksinasiya həyata keçirilir. Peyvəndlər risk qrupunda olan bütün tibb işçilərinə, yaşı 65-dən yuxarı olan şəxslərə, hamilələrə və 6 aydan yuxarı olan uşaqlara vurulur. Uşaq və yeniyetmə müəssisələri, tibb işçiləri, idarə və təşkilatlarda çalışanlar və əhalinin hər bir təbəqəsi özləri könüllü olaraq peyvənddən yararlana bilirlər. İndiyədək 1500-dən artıq şəxs qripə qarşı vaksinasiyaya cəlb olunub.

Vaksinasiya Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzində və rayon mərkəzi xəstəxanalarında xüsusi işçi qrupları tərəfindən həyata keçirilir. Peyvənd zamanı heç bir narahatlıq müşahidə edilməyib.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***


### *Elan*

Naxçıvan Taekvando Mərkəzi İdman Klubunun möhür və ştampı itdiyindən etibarsız sayılır və fəaliyyəti dayandırılır.

### *İtmişdir*

Naxçıvan şəhəri, İ.Səfərli küçəsi 20 ünvanda Məmmədova Nəzakət Əhməd qızının adına verilən MH-0018182 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, İ.Səfərli küçəsi $20^{A}$ ünvanda Heydərova Natəvan Arif qızının adına verilən 14570 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

* * *

Bayramov Sadıx Əsəd oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Vəliyev Məhəmməd Şıxəli oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Gülməmmədova Lamiə Nizami qızının adına olan əmək kitabçası itdiyindən etibrsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Telli Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 181